**“Vergi ödəyicisinə verilmiş vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları”nın təsdiq edilməsi barədə**

“Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2007-ci il 6 noyabr tarixli 472-IIIQD nömrəli Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 dekabr tarixli 675 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Vergi ödəyicisinə verilmiş vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar 2008-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **A.Rasi-zadə**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 dekabr tarixli 219 nömrəli qərarı ilə təsdiq edilmişdir**

# Vergi ödəyicisinə verilmiş vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 dekabr tarixli 675 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır və vergi ödəyicisinə verilmiş vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi və ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə əməliyyatların aparılması, habelə həmin əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi qaydalarını müəyyən edir.

1.2. Əlavə dəyər vergisinin depozit hesabı – ƏDV-nin mədaxili, uçotu, hərəkəti və dövlət büdcəsinə məxarici ilə bağlı əməliyyatlar aparılan vahid xəzinə hesabıdır.

ƏDV-nin depozit hesabı Baş Dövlət Xəzinədarlığında (bundan sonra BDX) açılır. BDX ilə bank arasında münasibətlər bank hesab müqaviləsi ilə tənzimlənir.

ƏDV sub-uçot hesabı – ƏDV-nin depozit hesabına mədaxil olmuş ƏDV məbləğlərinin vergi ödəyiciləri üzrə uçotunun aparılması məqsədi ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyində açılmış uçot vərəqələridir.

1.3. Qanunvericilikdə başqa hallar nəzərdə tutulmamışdırsa, əvəzləşdirilən ƏDV-nin məbləği vergi ödəyicisinə verilmiş vergi hesab-fakturalarında nağdsız qaydada (mal, iş və xidmət təqdim edənin bank hesabına birbaşa nağd qaydada ödənişlər istisna edilməklə) ödəmələr üzrə ƏDV-nin depozit hesabına və bu hesab daxilində aparılan əməliyyatlarda ödənilən vergi məbləği sayılır.

1.4. Malları (işləri, xidmətləri) alan şəxs (bundan sonra - alıcı) tərəfindən vergi hesab-fakturalarında göstərilən malların (işlərin, xidmətlərin) ƏDV-siz dəyəri həmin malları (işləri, xidmətləri) təqdim edən şəxsin (bundan sonra - satıcı) bank hesabına, ƏDV-nin məbləği isə ƏDV-nin depozit hesabına köçürülməlidir.

1.5. Mal (iş, xidmət) təqdim edən satıcı tərəfindən alıcıya təqdim olunan vergi hesab-fakturalarında ƏDV məbləğinin köçürülməsi üçün nəzərdə tutulan ƏDV-nin depozit hesabının rekvizitləri göstərilməlidir.

## 2. ƏDV-nin depozit hesabına vəsaitlərin mədaxili

2.1. ƏDV-nin depozit hesabına vəsaitlər aşağıdakı, lakin bunlarla məhdudlaşdırılmayan mənbələrdən daxil ola bilər:

- ƏDV qeydiyyatında olan vergi ödəyicisinin öz bank hesablarından;
- digər vergi ödəyicilərinin bank hesablarından.

2.2. Alınmış mallara (işlərə, xidmətlərə) görə təqdim edilmiş vergi hesab-fakturaları üzrə ödənilməli olan ƏDV-nin məbləği vergi ödəyicisi, o cümlədən ƏDV məqsədləri üçün qeydiyyatda olmayan büdcə təşkilatları, dövlət müəssisələri, səhmlərinin və paylarının 50 faizindən çoxu dövlətə məxsus olan hüquqi şəxslər tərəfindən ƏDV-nin depozit hesabına ödəniş sənədləri əsasında köçürülür.

2.3. Nağdsız ödənişlərin aparılması zamanı tətbiq olunan "A" formatlı ödəniş tapşırığı ƏDV-nin ödənilməsi üçün istifadə edildikdə, "B1. Benefisiar (alan) bank" bölməsində BDX-nin bank rekvizitləri əks etdirilməlidir. Həmin ödəniş tapşırığının "B2.Vəsaiti alan" bölməsinin "Adı" sətirində satıcının adı, "Hesab №-si" sətirində ƏDV-nin depozit hesabının nömrəsi, "VÖEN" sətirində isə satıcının VÖEN-i dəqiq qeyd olunmalıdır.

Satıcı alıcıdan ƏDV-nin depozit hesabına ƏDV məbləğinin köçürülməsini təsdiq edən ödəniş sənədini tələb edə bilər.

2.4. ƏDV-nin ödənilməsi üçün təqdim edilmiş ödəniş tapşırığının bank tərəfindən bu Qaydalara və qüvvədə olan digər normativ hüquqi aktların tələblərinə uyğunluğu yoxlanılır.

2.5. Ödəniş tapşırığının "B2.Vəsaiti alan" bölməsində satıcının VÖEN-i düzgün qeyd olunmadıqda, daxil olmuş vəsait onu ödəyən alıcının VÖEN-inə uyğun olaraq, açılmış ƏDV-nin "naməlum sub-uçot hesabı"na mədaxil edilir.

2.6. Milli Bankın ödəniş sistemləri vasitəsi ilə alınmış məlumatlar BDX tərəfindən Bu Qaydaların 1 nömrəli əlavəsinə uyğun formada, elektron formatda Azərbaycan RespublikasıVergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminə ötürülür.

İş gününün sonunda isə BDX tərəfindən hesabdan çıxarış bank sənədləri ilə birlikdə Azərbaycan Respublikasının Vergilər Nazirliyinə təqdim edilir.

## 3. ƏDV-nin depozit hesabından vəsaitlərin məxarici

3.1. Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən mərkəzləşdirilmiş qaydada hazırlanmış ödəniş tapşırığına əsasən ƏDV-nin depozit hesabından pul vəsaitləri aşağıdakı hallarda dövlət büdcəsinə köçürülür:

- əlavə dəyər vergisi üzrə vergi öhdəliyinin, faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsi üçün;
- vergi ödəyicisinin rəsmi müraciətinə əsasən.

3.2. Vergi ödəyicilərinin ƏDV üzrə öhdəliklərinin yerinə yetirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Vergi Məcəlləsinin müddəalarına əsasən ƏDV-nin depozit hesabından vəsaitin dövlət büdcəsinə ödənilməsi üçün vergi öhdəliklərinin yaranması ardıcıllığına uyğun olaraq təsdiq edilmiş kassa xərclərinin sifarişi (2 nömrəli əlavə) iki nüsxədə, ödəniş tapşırığı elektron imzalarla təsdiq edilmiş elektron formatda və ya kağız daşıyıcılarında 4 nüsxədə "ƏDV-nin depozit hesabı üzrə

məxaric vəsaitləri haqqında" Reyestr (3 nömrəli əlavə) kağız formatda saat 13:00-dək BDX-yə təqdim edilir.

Kassa xərclərinin sifarişinin bir nüsxəsi BDX tərəfindən təsdiq edilərək növbəti iş günündə Azərbaycan Respublikasının Vergilər Nazirliyinə qaytarılır. BDX tərəfindən ödəniş tapşırığı üzrə vəsaitlərin aidiyyəti yerli xəzinədarlıq orqanlarına köçürülməsi məqsədi ilə elektron formatda ödəniş tapşırıqlarının təsdiq edilməsi təmin olunur və bank hesab müqaviləsində nəzərdə tutulmuş reqlamentə uyğun olaraq xidmət olunduğu banka göndərilir.

ƏDV-nin depozit hesabı üzrə bank əməliyyatları Milli Bankın ödəniş sistemləri vasitəsi ilə aparılır.

Bank BDX tərəfindən təqdim olunmuş ödəniş tapşırığı üzrə vəsaitlərin gün ərzində aidiyyəti yerli xəzinədarlıq orqanlarına köçürülməsini təmin edir.

Azərbaycan Respublikasının Vergilər Nazirliyi təqdim edilmiş ödəniş tapşırığında qeyd olunan ödəmə məbləğlərinin həmin vəsaitlərin dövlət büdcəsinə mədaxil edilmə tarixlərinə müvafiq olaraq vergi ödəyicilərinin vergi orqanında aparılan şəxsi hesab vərəqələrinə daxil edilməsini təmin edir.

## 4. ƏDV qeydiyyatında olan vergi ödəycilərinin ƏDV sub-uçot hesabları üzrə vəsaitlərin hərəkəti

4.1. Vergi ödəycisinin ƏDV sub-uçot hesabına vəsaitlər bu Qaydaların 2.1-ci bəndində göstərilən mənbələrdən və digər ƏDV sub-uçot hesablarından mədaxil edilə bilər.

4.2. ƏDV sub-uçot hesabından ƏDV məbləğlərinin köçürülməsi aşağıdakı ardıcıllıqla aparılır:

- dövlət büdcəsinə;
- ƏDV sub-uçot hesablarına.

4.3. Alınmış vergi hesab-fakturasına əsasən alıcı öz ƏDV sub-uçot hesabından ƏDV məbləğini satıcının ƏDV sub-uçot hesabına köçürə bilər. Bu ödənişi aparmaq üçün alıcı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 iyul 2007-ci il tarixli 120 nömrəli qərarına uyğun olaraq, vergi orqanından aldığı xüsusi parol-şifrə vasitəsilə İnternet vergi idarəsinə (www.e-taxes.gov.az) daxil olur və yaradılmış "Köçürmə əməliyyatlarının aparılması" menyusundan istifadə etməklə ödənişi həyata keçirir. Əməliyyat başa çatdıqdan sonra proqram təminatı vasitəsilə alıcı köçürmənin aparılması haqqında bildiriş çap edə bilər. Satıcı alıcıdan ƏDV sub-uçot hesabından köçürmənin aparılmasını təsdiq edən bildirişi tələb edə bilər.

4.4. Vergi ödəyiciləri vergi orqanlarından alınmış xüsusi parol-şifrədən istifadə etməklə, öz ƏDV sub-uçot hesabı üzrə real vaxt rejimində əməliyyatların aparılması ilə yanaşı, bu sub-uçot hesabı üzrə aparılmış əməliyyatlar və saldo barədə məlumatlar əldə edə bilərlər.

4.5. Ödəniş tapşırığında satıcının VÖEN-i düzgün göstərilmədiyi halda alıcı İnternet vergi idarəsinə daxil olaraq, ƏDV-nin "naməlum sub-uçot hesabı"ndan satıcıya ünvanlanan vəsaitləri onun VÖEN-i göstərməklə köçürmə əməliyyatları aparmalıdır.

Ödəniş tapşırığının “B2.Vəsaiti alan” bölməsində satıcının VÖEN-i düzgün qeyd olunmadıqda və vəsaiti ödəyən ƏDV qeydiyyatında olmadıqda, həmin vəsait ƏDV-nin “naməlum sub-uçot hesabı”na mədaxil edilməklə dövlət büdcəsinə köçürülür və həmin məbləğ vəsaiti ödəyən vergi ödəyicisinin vergi orqanında olan şəxsi hesab vərəqəsinə daxil edilir.

4.6. Vergi ödəyicisi tərəfindən ƏDV sub-uçot hesabından dövlət büdcəsinə vergilər üzrə ödəniş həyata keçirilə bilər. Bu halda Azərbaycan Respublikasının Vergilər Nazirliyi həmin vəsaitlərin bu Qaydalara uyğun ödəniş tapşırığında əks etdirilməsini təmin etməlidir.

Vergi ödəyicisi tərəfindən ƏDV sub-uçot hesabından dövlət büdcəsinə ödəniş iş günü saat 11:30-dək proqram təminatında təsdiq edildikdə, həmin vəsaitin dövlət büdcəsinə ödənilməsi üçün Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müvafiq sənədlər həmin gün bu Qaydaların 3.2-ci bəndində müəyyən edilmiş qaydada təqdim olunur.

Vergi ödəyicisi tərəfindən ƏDV sub-uçot hesabından dövlət büdcəsinə ödəniş iş günü saat 11:30-dan sonra və ya qeyri-iş günündə proqram təminatında təsdiq edildikdə, həmin vəsaitin dövlət büdcəsinə ödənilməsi üçün Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müvafiq sənədlər də növbəti iş günündə bu Qaydaların 3.2-ci bəndində müəyyən edilmiş qaydada təqdim olunur.

4.7. Vergi ödəyicisi ƏDV sub-uçot hesabından ƏDV məbləğlərinin qaytarılması üçün həmin vəsaiti dövlət büdcəsinə köçürməlidir və bu vəsaitlərin qaytarılması vergi qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

4.8. Azərbaycan Respublikasının Vergilər Nazirliyi və BDX arasında ƏDV-nin depozit hesabına mədaxil və məxaric olunmuş vəsaitlər barədə aylıq üzləşmə aktı tərtib edilir.

4.9. Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən proqram təminatı vasitəsi ilə bu Qaydaların 4 nömrəli əlavəsinə uyğun formada istənilən iki tarix aralığında ƏDV sub-uçot hesabının hərəkəti barədə məlumata BDX-yə elektron formatda baxış və həmin məlumatın çapı üçün imkan yaradılır. Bu zaman iki tarix aralığı dedikdə, birinci tarixin əvvəli saat 00:00-dan - ikinci tarixin əvvəli saat 00:00-dək olan müddətlər nəzərdə tutulur.

Bu məlumatların itirilməsi və yaxud acıqlanması qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

## 5. ƏDV qeydiyyatının ləğvi, vergi ödəyicisinin ləğvi və yenidən təşkili ilə bağlı ƏDV sub-uçot hesabları üzrə əməliyyatların aparılması

5.1. Vergi ödəyicisinin ƏDV qeydiyyatının ləğvi onun ƏDV sub-uçot hesabından istifadəsinin məhdudlaşdırılması üçün əsasdır. Vergi ödəyicisinin ƏDV qeydiyyatı ləğv edilərkən onun ƏDV sub-uçot hesabında olan və sonradan bu sub-uçot hesabına daxil olan pul vəsaitləri dövlət büdcəsinə köçürülür və həmin vergi ödəyicisinin vergi orqanında olan şəxsi hesab vərəqəsinə daxil edilir.

5.2. Vergi ödəyicisi ləğv edilərkən onun ƏDV sub-uçot hesabında olan pul vəsaitləri bu Qaydalara uyğun olaraq, dövlət büdcəsinə köçürülür və həmin vergi ödəyicisinin vergi orqanında olan şəxsi hesab vərəqəsinə daxil edilir.

5.3. Hüquqi şəxs birləşmə, qoşulma və bölünmə nəticəsində ləğv edilərkən onun ƏDV sub-uçot hesabında olan pul vəsaitləri yeni təşkil edilmiş ƏDV qeydiyyatında olan hüquqi şəxslərin ƏDV sub-uçot hesablarına və ya dövlət büdcəsinə köçürülür.

5.4. Hüquqi şəxsin tərkibindən bir və ya bir neçə hüquqi şəxs ayrıldıqda, onun ƏDV sub-uçot hesabında olan pul vəsaitləri bölünmə balansına uyğun olaraq, yeni təşkil edilmiş ƏDV qeydiyyatında olan hüquqi şəxslərin ƏDV sub-uçot hesablarına köçürülə bilər.

“Vergi ödəyicisinə verilmiş vergi hesab-fakturası üzrə alınmış malların
(iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin
depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə
aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət
büdcəsinə köçürülməsi Qaydaları”na
1 nömrəli əlavə

# ƏDV-nin depozit hesabına daxil olmuş pul vəsaitləri haqqında Reyestr

___ ___________ 200 il

| **Sıra №-si** | **Bank əməliyyatının nömrəsi** | **Ödəyən tərəfin** | | **Alan tərəfin** | | **Ödəniş məbləği (manatla)** |
|---|---|---|---|---|---|---|
| | | **adı** | **VÖEN-i** | **adı** | **VÖEN-i** | |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** |
| 1 | | | | | | |
| 2 | | | | | | |
| 3 | | | | | | |
| | | | | | | |
| **CƏMİ** | | | | | | |

**Məbləğ :**______________________________________________manat.

*(sözlə)*

“Vergi ödəyicisinə verilmiş vergi hesab-fakturası üzrə alınmış malların ( iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları”na
2 nömrəli əlavə

**Kassa xərclərinin SİFARİŞİ №**

**Xəzinədarlıq** ***Azərbaycan Respublikasının Maliyyə Nazirliyi***

**Büdcə təşkilatı** ***Azərbaycan Respublikasının Vergilər Nazirliyi***
*(adı, XHK №-si)*

**Tarix: "____" "____________" 200 il**

| Vergilər Nazirliyi tərəfindən doldurulur | | | | | Xəzinədarlıq tərəfindən doldurulur | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| İqtisadi təsnifat | Ödəniş sənədinin | | | Günün əvvəlinə vəsait qalığının məbləği | Ödəniş sənədi haqqında məlumat | | | | Qeyd |
| | | | | | Ödəniş sənədinin | | | | |
| | № - si | tarixi | məbləği (manatla) | | adı | № - si | tarixi | məbləği (manatla) | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| | | | | X | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| CƏMİ | | | | | | | | | |

Məbləğ __________________________________________________________*manat.*
*(sözlə)*

Vergi orqanının vəzifəli şəxsi 1. _______ imza

2. _______ imza

Xəzinədarlıq orqanının vəzifəli şəxsi 1. _______ imza

2. _______ imza

M.Y.

M.Y.

“Vergi ödəyicisinə verilmiş vergi hesab-fakturası üzrə alınmış malların ( iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları”na
3 nömrəli əlavə

**___ __________ 200 il**

## ƏDV-nin depozit hesabı üzrə məxaric vəsaitləri haqqında

*(manatla)*

| **Sıra №-si** | **Vergi ödəyicisinin adı** | **VÖEN** | **Ödəniş məbləği** | **Ödəniş tapşırığının nömrəsi** |
|---|---|---|---|---|
| **1** | | | | |
| **2** | | | | |
| **3** | | | | |
| ***Cəmi __________ YXO üzrə*** | | | | **X** |
| | | | | |
| | | | | |
| | | | | |
| **YEKUN** | | | | **X** |

**Yekun məbləği :**________ ______________________________________________manat.
*(sözlə)*

Vergi orqanının vəzifəli şəxsi:

________________ ____________________ __________________
*(imza)* *(vəzifə)* *(adı, soyadı, atasının adı)*

M.Y.

________________
*(tarix)*

“Vergi ödəyicisinə verilmiş vergi hesab-fakturası üzrə alınmış malların ( iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları”na
4 nömrəli əlavə

# ƏDV sub-uçot hesabının hərəkəti

Birincı tarix:___________ ikinci tarix:_______

*(manatla)*

| **Vergi ödəyicisinin adı** | **VÖEN** | **Birinci tarixin əvvəlinə qalıq** | **Mədaxil** | | **Məxaric** | | **İkinci tarixin əvvəlinə qalıq** |
|---|---|---|---|---|---|---|---|
| | | | **vergi ödəyiciləri nin bank hesablarından** | **vergi ödəyiciləri nin ƏDV sub-uçot hesablarından** | **vergi ödəyiciləri nin ƏDV sub-uçot hesablarına** | **dövlət büdcəsinə** | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| **CƏMİ** | | | | | | | |